# Antalya Diplomatiya Forumu

# XXI əsrin xilası diplomatiyada gizlidir

**Bu gün dünyada baş verən mürəkkəb geosiyasi dəyişikliklər, formalaşmaqda olan yeni dünya düzəni bir həqiqəti daha da aydın göstərir. Azərbaycan regionda sabitliyin, tərəqqinin və etimadın əsas dayağına çevrilib. Avropa ilə Asiyanın kəsişməsində yerləşən ölkəmiz təkcə coğrafi deyil, həm də strateji baxımdan körpü funksiyasını uğurla yerinə yetirir.**




Ölkəmiz artıq beynəlxalq miqyasda etibarlı tərəfdaş kimi tanınır, qlobal proseslərdə söz sahibi kimi çıxış edir. Prezident İlham Əliyev qlobal problemlərə münasibətdə səsləndirdiyi çağırışlarla, təşəbbüskar mövqeyi ilə sübut edir ki, beynəlxalq əməkdaşlıq Azərbaycanın strateji seçimidir. Dostluğa, qarşılıqlı hörmətə və bərabərhüquqluluğa əsaslanan münasibətlər siyasətimizə yön verir. Xüsusilə, qonşu ölkələrlə qurulan mehriban dostluq əlaqələri, dünyanın aparıcı dövlətləri ilə formalaşan balanslaşdırılmış siyasət Azərbaycanı regionda alternativi olmayan aktor statusuna yüksəldir. Şübhəsiz, bu mövqeyin möhkəmlənməsində ölkəmizin Şərqlə Qərbi birləşdirən meqalayihələrin həm təşəbbüskarı, həm də fəal iştirakçısı olması mühüm rol oynayır. Bu gün hər kəs etiraf edir ki, Cənubi Qafqazda yeni reallığın müəllifi məhz Azərbaycandır.

**(davamı 4-cü səhifədə)**

# Antalya Diplomatiya Forumu

## XXI əsrin xilası diplomatiyada gizlidir



(əvvəli 1-ci səhifədə)

Prezident İlham Əliyevin qətiyyətli və uzaqgörən liderliyi ilə bölgədə yaranan bu reallıqla artıq hər kəs barışmaq məcburiyyətindədir. Heç kim bu tendensiyanı Bakının siyasi iradəsindən kənar dəyişə bilməz. Belə ki, regionda baş verən istənilən iqtisadi və siyasi prosesdə Azərbaycanın iştirakı, iştirakdan daha çox yönverici mövqeyi hiss olunur. Sülhün, sabitliyin və dinamik inkişafın əsas təminatçısı kimi məhz Azərbaycan qəbul edilir. Və bu, dünyanın inkişaf etmiş ölkələrinin Cənubi Qafqaz siyasətində bizə verdiyi dəyərin göstəricisidir. Azərbaycan bu gün daha geniş coğrafiyaları əhatə edən proseslərdə aparıcı mövqedədir.

Məhz belə bir mürəkkəb mərhələdə Türkiyənin Antalya şəhərində keçirilən IV Antalya Diplomatiya Forumu qlobal siyasətin nəbzini tutan, dünyanın müxtəlif guşələrindən dövlət və hökumət başçılarını, xarici siyasətin memarlarını bir araya gətirən önəmli bir platformaya çevrilib. Qeyd edək ki, dörd mindən çox qonağın qatıldığı ADF2025-də dünyanın 140-dan çox ölkəsindən 20-dən artıq dövlət və hökumət başçısının iştirakı nəzərdə tutulur. Tədbirdə 50-dən çox ölkə xarici işlər nazirləri də daxil olmaqla, 70-dən artıq nazirlə təmsil olunur. Foruma, həmçinin təxminən 60 yüksəksəviyyəli beynəlxalq təşkilatın nümayəndələri qatılır.

Aprelin 11-dən 13-dək davam edən bu mötəbər forumda Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı qlobal diplomatik düzəndə ölkəmizin rolunu bir daha ortaya qoyur. Bu gün "Parçalanmış dünyada diplomatiyanı bərpa etmək" kimi dərin və aktual bir mövzu ətrafında aparılan müzakirələrdə Prezident İlham Əliyev fəal iştirak nümayiş etdirir. Azərbaycanın lideri bu platformada sadəcə iştirakçı deyil - müzakirələrə istiqamət verən, təklifləri ilə çıxış edən, diplomatik tənəzzül dövründə çıxış yolları göstərən bir siyasətçi, liderdir. Prezident İlham Əliyevin beynəlxalq siyasətə yanaşmasında rasional təhlil və strateji uzaqgörənlik həmişə seçilir. Elə bu səbəbdəndir ki, onun çıxışları, təklifləri, baxışları hər zaman diqqət mərkəzində olur, geniş rezonans doğurur. Ölkə başçısının milli maraqlara söykənən mövqeyi həm də dünya üçün sülh, əməkdaşlıq və qarşılıqlı hörmətin vacibliyini xatırladır.

Antalyada keçirilən görüşlər Azərbaycan-Türkiyə münasibətlərinin yeni bir mərhələyə qədəm qoyduğunu nümayiş etdirir. Bu səfər yalnız iki dost və qardaş ölkənin liderlərini bir araya gətirməklə kifayətlənmir, eyni zamanda strateji əməkdaşlığın dərinləşməsi üçün geniş üfüqlər açır. Siyasi dialoqun intensivliyi, iqtisadi əlaqələrin dinamikası, enerji və nəqliyyat layihələrindəki sinxron manevr, müdafiə sahəsindəki güclü koordinasiya bu münasibətlərin məğzini təşkil edir. Məhz Antalya Diplomatiya Forumu çərçivəsində Prezident İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü deyilənlərə əyani misaldır. Məlumdur ki, Azərbaycan və Türkiyə regionun sabitlik sütunları kimi çıxış edirlər. Onların təşəbbüskarlığı ilə Cənubi Qafqazdan Mərkəzi Asiyaya, Qara dənizdən Aralıq dənizinə qədər uzanan geniş bir coğrafiyada sülhün, təhlükəsizliyin və davamlı inkişafın bünövrəsi möhkəmlənir. Bu liderlik və məsuliyyət beynəlxalq müstəvidə xüsusi rəğbətlə qarşılanır. Türkiyə ilə Azərbaycan arasındakı münasibətlər bu gün regional inteqrasiyanın ən parlaq modeli kimi dəyərləndirilir. Ortaq tarix, dəyərlər və məqsədlər üzərində qurulan bu bağlar real geosiyasi və iqtisadi gücə çevrilib. Bu birlik sayəsində bölgənin gələcəyi daha parlaq, əməkdaşlıq isə daha məhsuldar görünür. Prezident İlham Əliyevin Antalyaya işgüzar səfəri və Diplomatiya Forumunda iştirakı bu reallığın məntiqi davamıdır. Bu səfər strateji tərəfdaşlığın möhkəmləndirilməsinə xidmət etməklə yanaşı, Azərbaycanın beynəlxalq nüfuzuna, diplomatik təsir imkanlarına və qlobal sülh gündəliyinə də mühüm töhfələr verir.

Ölkə başçımız Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar ilə də görüşdü. Görüş çərçivəsində Prezident ölkəmizdə və beynəlxalq tədbirlər çərçivəsində keçirilən görüşlər, həmçinin ötən il onun Şuşada Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə toplantısında iştirakı məmnunluqla xatırlandı. Prezident İlham Əliyev Şimali Kipr Türk Cümhuriyyətinin Türk Dövlətləri Təşkilatına müşahidəçi qismində qatılmasını qeyd etdi. Bununla yanaşı, Ersin Tatar cənab İlham Əliyevə Şimali Kipr Türk Cümhuriyyətinə göstərdiyi həmrəyliyə və dəstəyə, həmçinin bir neçə gün əvvəl ADA Universitetində keçirilən beynəlxalq forumda dediyi sözlərə görə minnətdarlığını ifadə etdi. Xüsusi qeyd edilməlidir ki, bu görüş türk birliyinin müxtəlif platformalarda daha da gücləndiyini göstərən ən mühüm amildir.

Ümumiyyətlə, yeni dünya düzəninin formalaşdığı bir ərəfədə Antalya Diplomatiya Forumuna yönələn gözləntilər xüsusilə böyükdür. Xatırladaq ki, 2021-ci ildə, dünyanın COVID-19 pandemiyası ilə sınağa çəkildiyi ağır bir dövrdə gerçəkləşən ilk Forum diplomatiya adına əsl cəsarət nümunəsi oldu. Qlobal sağlamlıq böhranına baxmayaraq, bu platforma 2 minə yaxın iştirakçını - dövlət və hökumət başçılarını, diplomatları, siyasətçiləri və ekspertləri - bir araya gətirməyə nail oldu. Bu, diplomatiyanın gücünə, dialoqun əhəmiyyətinə inamın əməli sübutu idi. 2023-cü ildə isə "Diplomatiyanın yenidən qurulması" şüarı ilə keçirilən Forum daha geniş miqyas almışdı. 20 dövlət başçısı, 70-dən artıq baş nazir və xarici işlər naziri, 50-yə yaxın beynəlxalq təşkilat təmsilçisi, 200-dən artıq media nümayəndəsi və ümumilikdə 2500-dən çox iştirakçı bir araya gələrək dünyanın taleyüklü məsələlərini müzakirə etdi. Bu, təkcə fikir mübadiləsi deyildi - bu, beynəlxalq münasibətlər sisteminin yenidən düşünülməsi, bəlkə də gələcək diplomatik nizamın konturlarının çəkilməsi idi. Bununla yanaşı, ötən il 1-3 mart tarixlərində keçirilən Antalya Diplomatiya Forumu isə "Böhranlar dönəmində diplomatiyanı önə çıxarmaq" şüarı ilə dünyanın diqqət mərkəzində olmuşdu. Forumun açılış mərasimində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın çıxışı bir növ çağımızın mövcud çağırışlarını özündə ehtiva edirdi. Qeyd edək ki, forumda 148 ölkədən 4700 nümayəndə iştirak edirdi. Forum çərçivəsində keçirilən 50-dən artıq panel iclasında dünyanın ən kəskin və gündəmdə olan problemləri müzakirə olundu. Müharibələr və münaqişələr, terrorizm və miqrasiya, islamofobiya və iqlim böhranı, epidemiya və enerji çatışmazlığı, qida təhlükəsizliyi və süni intellektin doğurduğu etik risklər, bu və digər onlarla məsələ ətrafında səslənən fikirlər, təkliflər və debatlar diplomatiyanın dəyərini bir daha nümayiş etdirdi.

Antalya Diplomatiya Forumu bu gün diplomatiyanın özünə güzgü tutduğu, liderlərin səsləndirdiyi ideyaların əsas məkanına, ali bir tribunaya çevrilib. Burada atılan hər addım, səslənən hər fikir sabahın geosiyasi xəritəsini formalaşdırmağa qadir potensiala malikdir.

**Nurlan ABDALOV,**
**"Respublika".**